**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# KİTABXANA-İNFORMASİYA XİDMƏTİNİN ELEKTRONLAŞDIRILMASI: MÜASİR VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

(M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının təcrübəsi əsasında)

İxtisas: 3356.01 - Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq

Elm sahəsi: Tarix

İddiaçı: **Ədibə İmaş qızı İsmayılova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2022**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix üzrə fəlsəfə doktoru, professor,
Əməkdar mədəniyyət işçisi
**Kərim Məhəmməd oğlu Tahirov**

Rəsmi opponentlər: AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
**İsmayıl Muxtar oğlu Hacıyev**

tarix üzrə fəlsəfə doktoru
**Əlizadə Şəmil oğlu Nəcəfov**

tarix üzrə fəlsəfə doktoru
**Şəfəq İsrafil qızı İslamova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30 Birdəfəlik Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor

______________

**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix üzrə fəlsəfə doktoru, dosent

______________

**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor

______________

**Xəlil İsmayıl oğlu İsmayılov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.**

Son illər milli mənəvi potensialın güclənməsi, elmi infrastrukturun inkişafı, yeni nəzəriyyə ilə zənginləşməsi, qlobal informasiya məkanına inteqrasiya olması ölkədə gedən proseslərlə sıx əlaqədardır. Müstəqillik illərində ictimai həyatımızın bütün sahələrində, xüsusilə mədəniyyət sahəsində əldə olunan yeniliklər və uğurlar bu sahəyə dövlət qayğısının artması ilə izah olunur. Təsadüfi deyil ki, məhz bu illər ərzində Azərbaycan Milli Kitabxanası milli status almış, Azərbaycan mədəniyyətinin inkişafı ilə əlaqədar bu sahədə çalışan mütəxəssislərin sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı önəmli sənədlər qəbul olunmuşdur. Bu da mədəniyyət müəssisələrinin aktiv fəaliyyətinin əhəmiyyətli dərəcədə canlanması ilə nəticələnmişdir.

Müstəqil Azərbaycanda kitabxana işinin inkişafı ulu öndər Heydər Əliyevin, onun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin adı ilə bağlıdır. Ölkədə “Mədəniyyət haqqında”, “Kitabxana işi haqqında”, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanunlarının qəbul olunması və “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”, “Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)”, “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının müasir tələblərə uyğun inkişafı haqqında Dövlət Proqramı (2004-2012-ci illər)”nın təsdiq edilməsi barədə, “Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin sərəncamları müstəsna əhəmiyyətə malikdir və onlar Azərbaycan kitabxanalarının fəaliyyətinin əsas istiqamətlərini, o cümlədən kompüter-internet texnologiyalarının kitabxanaların təcrübəsinə tətbiqinin prioritetlərini müəyyən etmişdir.

Yeni informasiya texnologiyalarının tətbiqi ilə qarşıya qoyulmuş problemlərin həllinə cəhd göstərən kitabxanalardan biri

olan M.F.Axundov adına Milli Kitabxananın istifadəçilərə informasiya xidmətindəki rolu olduqca önəmlidir. Milli Kitabxana milli özünüdərketmənin, milli mədəniyyətin formalaşmasının əlamətlərindən, atributlarından biri hesab edilir, milli mənəvi dəyərlərimizin etibarlı saxlanc məbədidir. Milli Kitabxananın tarixinin öyrənilməsi göstərir ki, Milli Kitabxananın kitabxana-informasiya xidməti sahəsində fəaliyyəti çox zəngin və digər kitabxana şəbəkələri üçün təcrübi əhəmiyyət kəsb etsə də, bu problem kompleks şəkildə araşdırılmamış və dərin elmi tədqiqat obyekti olmamışdır. Bu dissertasiya işində də həmin amil əsas götürülərək Milli Kitabxanada qlobal informasiya infrastrukturu çərçivəsində kitabxana-informasiya xidmətinin elektronlaşdırılması tədqiq olunur. Tədqiqat işində kitabxana-informasiya xidmətinin elektronlaşdırılması prosesinin Azərbaycan təcrübəsi öyrənilərkən, dünya təcrübəsi nəzərə alınaraq dünya kitabxanaları tərəfindən yarım əsrlik müddət ərzində həyata keçirilən tədbirlərin əsas prinsiplərinə söykənilir.

Kitabxana-informasiya xidmətinin elektronlaşdırılmasının müasir vəziyyəti və perspektivlərinin öyrənilməsinə həm yerli, həm də xarici kitabxanaşünas mütəxəssis alimlərin əsərlərində rast gəlmək mümkündür. Belə ki, Əməkdar elm xadimi, tarix üzrə elmlər doktoru, professor A.A.Xələfov [1], tarix üzrə elmlər doktoru, professor X.İ.İsmayılov [2], filologiya üzrə elmlər doktoru A.İ.Əliyeva-Kəngərli [3], tarix üzrə fəlsəfə doktoru, professor K.M.Tahirov[4], pedaqogika üzrə fəlsəfə doktorları - dosent N.İ.İs-

---

[1] Xələfov, A.A. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir / A.A.Xələfov. – Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, – 2009. – 185 s.; Xələfov, A.A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar) / A.A.Xələfov. – Bakı, – 2006. – 106 s.

[2] İsmayılov, X.İ. Kitabxana informasiya texnologiyaları: Dərs vəsaiti / X.İ.İsmayılov. – Bakı: Nurlar, – 2009. – 312 s.

[3] Əliyeva-Kəngərli, A.İ. Müasir Azərbaycanda elmin informasiya təminatı və kitabxanalar / A.İ.Əliyeva-Kəngərli. – Bakı: Elm, – 2007. – 394 s.

[4] Tahirov, K.M. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tarixi: 1923-2008-ci illər / K.M.Tahirov. – Bakı, – 2008. – 218 s.; Tahirov, K.M. Azərbaycan Milli Kitabxanası müstəqillik illərində // – Bakı: Azərbaycan Milli

mayılov[5], dosent K.İ.Aslan[6], dosent E.Y.Əhmədov[7], tarix üzrə fəlsəfə doktoru C.A.Cəfərov[8], rus alimləri - V.V.Brejneva, R.S.Gilyarevski[9], M.İ.Verşinin[10], K.V.Viqurski[11], Amerika Elmi Tədqiqat Agentliyinin direktoru V.E.Buş[12], C.S.R.Liklider[13] və bir sıra mütəxəssislər öz tədqiqatlarında kitabxanaların avtomatlaşdırılmasının mənzərəsini müxtəlif aspektlərdən yaratmağa nail olmuşlar. Lakin elmi və praktiki işlərdə problemin müəyyən istiqamətlərinin öyrənilməsinə baxmayaraq, "Kitabxana-informasiya xidmətinin elektronlaşdırılması: müasir vəziyyəti və perspektivləri

---

Kitabxanası. Elmi Əsərlər, 2015. Bur. 7, – s. 8-25; Tahirov, K.M. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası 2010-cu ildə virtual rejimdə xidmət sahəsinə daha çox üstünlük vermişdir // – Bakı: Kitabxana.az, – 2011. № 2-3. – s. 7-9. və s.

[5] İsmayılov, N.İ. Avtomatlaşdırılmış kitabxana // – Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi, – BSU nəşriyyatı, – 2003. № 4, – s. 276-285.

[6] Aslan, K.İ. Dünya kitabxanaları tarixi (XVII əsrin ortalarından XXI əsrin əvvəllərinədək): Dərs vəsaiti / K.İ.Aslan. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 2010. – 448 s.; Aslan, K.İ. ABŞ Konqres Kitabxanasının tarixi və bu günü // – Bakı: Kitabxanaşünaslıq və informasiya, – 2011. № 2, – s. 94-114.

[7] Əhmədov, E.Y. Dünya milli kitabxanaları (Ümumi məlumat): Magistrantlar üçün dərs vəsaiti / E.Y.Əhmədov. – Bakı: Bakı Universiteti, – 2008. – 135 s.

[8] Cəfərov, C.A. Kitabxana-informasiya xidmətində elektron kataloq / C.A.Cəfərov. – Bakı: Proqres, – 2012. – 224 s.; Cəfərov, C.A. Azərbaycan kitabxanalarında Elektron kataloqların inkişaf perspektivləri // – Bakı: İnformasiya cəmiyyəti problemləri, – 2011. № 2(4), – s. 50-60.

[9] Брежнева, В.В. Информационное обслуживание: учебное пособие / В.В.Брежнева, Р.С. Гиляревский, – Санкт-Петербург: Профессия, – 2012. – 368 с.

[10] Вершинин, М.И. Электронный каталог: проблемы и решения / М.И.Вершинин. – Санкт-Петербург: Профессия, – 2007. – 230 с.

[11] Вигурский, К.В. Электронные издания и электронные библиотеки как специфический вид автоматизированных информационных систем // – Москва: Межотраслевая информ. Служба, – 1999. Вып. 1, – с. 7-15.

[12] Bush, V.E. As We May Think // Boston: The Atlantik, – 1945, July, – p. 34-44.

[13] Licklider, J.C.R. Libraries of the future / J.C.R.Licklider // Council on Library Resources. – Cambridge, Mass.: Bolt, Beranek, Newman, – 1965. – 253 p.

(M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının təcrübəsi əsasında)" ayrıca tədqiqat mövzusu olmamışdır.

**Tədqiqatın obyekti və predmeti**.

Tədqiqatın obyekti M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının fəaliyyətinin başlıca istiqaməti olan kitabxana-informasiya xidmətinin təkamülü kontekstində onun elektronlaşdırılması platformasıdır.

Tədqiqatın predmeti M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının iş təcrübəsi əsasında kitabxana-informasiya xidmətinin elektronlaşdırılması tarixini elmi-metodoloji və praktiki cəhətdən təhlil etmək, əldə olunan nəticələri kitabxanaşünaslıq və tarixşünaslıq nöqteyi-nəzərindən ümumiləşdirməkdən ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.**

Tədqiqatın başlıca məqsədi Azərbaycanda və dünyada kitabxana-informasiya xidmətinin elektronlaşdırılması tarixini, onun inkişaf mərhələlərini və müasir problemlərini tədqiq etmək, bu sahədəki cari vəziyyəti, perspektivləri müəyyənləşdirməklə Milli Kitabxananın xidmət sahəsindəki fəaliyyətinin elektronlaşdırılması prosesini sürətləndirmək üçün elmi nəzəri təkliflər irəli sürməkdir. Qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- problemin öyrənilmə səviyyəsini və tədqiqatın mənbəşünaslığını analiz etmək;
- kitabxana-informasiya xidmətinin təşəkkülü və formalaşması səviyyəsini müəyyənləşdirmək;
- kitabxana-informasiya xidmətinin elektronlaşmasının inkişaf mərhələlərini və müasir vəziyyətini öyrənmək;
- oxuculara kitabxana-informasiya xidməti proseslərinin avtomatlaşdırılması imkanlarını təhlil etmək;
- müvafiq sahədə mövcud olan fəaliyyət prinsiplərini və metodlarını araşdırmaq, bu zaman meydana çıxan problem və nöqsanları müəyyənləşdirib aradan qaldırmaq üçün təkliflər vermək;
- kitabxana-informasiya xidmətinin elektronlaşdırılması perspektivlərini müəyyənləşdirmək.

**Tədqiqat metodları.**

Dissertasiya işi yazılarkən tarixilik, elmi obyektivlik, sistemlilik və müqayisəli təhlil prinsipləri rəhbər tutulmuşdur. Tarixi fakt və təzahürlər təsvir olunarkən ümumelmi və tarixi metodlar sistemindən, o cümlədən aydınlaşdırma, öyrənmə, analiz və sintez metodlarından istifadə olunmuşdur. Kitabxana-informasiya xidmətinin elektronlaşdırılmasının tarixi, müasir vəziyyəti və problemləri, inkişaf perspektivlərinin öyrənilməsində elmi-nəzəri ədəbiyyatın təhlili aparılmış, yerli və əcnəbi kitabxanaların müvafiq sahədəki fəaliyyəti barədə müfəssəl məlumatlar toplanaraq təhlil edilmiş, nəticələr müqayisə olunaraq ümumiləşdirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

1. Kitabxana-informasiya xidmətinin elektronlaşdırılması, elektron kataloqun və elektron kitabxananın yaranması mərhələli prosesdir.
2. Kitabxana-informasiya xidmətinin elektronlaşdırılması yeni virtual xidmət formalarının və innovativ yeniliklərin sistemləşdirilməsində mühüm rol oynayır.
3. Kitabxana-informasiya xidmətində innovativ iş formalarından istifadə yeni inkişaf imkanlarına malikdir.

**Tədqiqatın elmi yeniliyi.**

Dissertasiya işində ilk dəfə olaraq M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının iş təcrübəsi əsasında kitabxana-informasiya xidmətinin elektronlaşdırılması tarixi və müasir problemləri kompleks şəkildə araşdırılmış, bu sahədəki nəzəriyyə və təcrübə öyrənilərək ümumiləşdirilmiş, kitabxana-informasiya xidmətinin elektronlaşdırılması üçün analitik informasiya təhlilinin yeni yanaşma və metodları təklif olunmuşdur:

- ilk dəfə olaraq Azərbaycanda M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının iş təcrübəsi əsasında kitabxana-informasiya xidmətinin elektronlaşdırılması tarixi mərhələlərə bölünmüş, hər bir tarixi mərhələyə məxsus olan inkişaf xüsusiyyətləri və istiqamətlər müəyyənləşdirilmişdir;
- ümumelmi və müqayisəli təhlil metodlarından istifadə etməklə kitabxana-informasiya xidmətinin elektronlaşdırılmasının

müasir vəziyyəti, mövcud problemləri və inkişaf perspektivləri öyrənilmişdir;

- kitabxana-informasiya təminatında yeni virtual xidmət formalarından istifadə imkanları nəzərdən keçirilmişdir;
- kitabxana-informasiya xidmətində innovativ iş formalarından istifadə və kitabxanaların fəaliyyətinə təsiri dəqiqləşdirilmişdir;

Elmi dövriyyəyə kitabxana-informasiya xidmətinin elektronlaşdırılması tarixi haqqında yeni materiallar daxil edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.**

İşin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, işdə kitabxana-informasiya xidmətinin elektronlaşdırılması tarixi elmi-nəzəri şəkildə tədqiq olunmuşdur. Tədqiqat nəticəsində kitabxana-informasiya xidmətinin elektronlaşdırılmasının mexanizmləri müəyyənləşdirilmişdir. Bu xüsusatlar Azərbaycanda kitabxana-informasiya xidmətinin elektronlaşdırılmasının elmi-nəzəri əsaslarının yaradılması üçün vacib rol oynamış, elektron kitabxanaşünaslıq istiqamətinin mövqeyinin möhkəmlənməsinə təsir göstərmişdir.

Eyni zamanda tədqiqatın nəticələrindən sahə üzrə gələcək elmi-tədqiqatlarda, dərslik və dərs vəsaitlərinin hazırlanmasında yararlanmaq mümkündür.

Tədqiqatın praktiki əhəmiyyəti isə ondan ibarətdir ki, əldə olunmuş nəticələr Azərbaycanda kitabxana-informasiya xidmətinin elektronlaşdırılmasında effektiv üsulların tətbiqinə imkan yaradır. Həmçinin Azərbaycan kitabxanalarının kitabxana-informasiya xidmətinin elektronlaşdırılması sahəsində təcrübələrinin öyrənilməsi və tədqiqata cəlb olunması prosesi zamanı meydana gələn xətaların, problemlərin aradan qaldırılması baxımından təlimatverici xüsusiyyətə malikdir. Bu da dissertasiya işinin praktiki əhəmiyyətini daha da artırmış olur.

Dissertasiya işində təqdim olunan materiallar, müddəalar və nəticələr ali məktəb tələbələrinə “Kitabxana xidməti”,“Kitabxana informasiya xidməti” və s. fənnlər üzrə mühazirələrin oxunmasında da istifadə oluna bilər.

Tədqiqatın nəticələrindən həmçinin, ali və orta ixtisas kitabxanaçılıq-informasiya təhsili müəssisələrində mütəxəssislərin

peşə kompetensiyasının formalaşmasının əsas ixtisas fənnləri bölümünün ayrı-ayrı kurslarında, o cümlədən, beynəlxalq, regional və yerli səviyyəli konfrans, seminar və treninqlərin keçirilməsində istifadə oluna bilər. Eyni zamanda kitabxana-informasiya xidmətinin elektronlaşdırılmasına dair elmi əsərlər, dərslik və dərs vəsaitləri yazmaq istəyən müəlliflər də tədqiqat işindən və burada əldə olunan nəticələrdən bəhrələnə bilərlər.

**Aprobasiyası və tətbiqi.**

Dissertasiyanın məzmunu, əsas müddəaları və nəticələri öz əksini müəllifin respublika və xarici ölkələrdə çap etdirdiyi elmi məqalələrdə, müxtəlif elmi konfranslardakı məruzələrində, hazırladığı kitablarda tapmışdır. Dissertasiya işinin mövzusu ilə əlaqədar müəllifin 2 kitabı, 18 elmi məqaləsi və 9 konfrans materialı çap olunmuşdur.

Dissertasiya işində irəli sürülən əsas müddəaların, təkliflərin, nəticələrin və yeni iş üsullarının əksəriyyəti M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının iş təcrübəsində tətbiq olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi.**

Giriş, 3 fəsil və nəticə daxil olmaqla dissertasiyanın ümumi həcmi 253070 (cədvəllər, diaqramlar və ədəbiyyat siyahısı istisna edilməklə) işarədən ibarətdir.

Giriş: işarə sayı – 15387, I fəsil: işarə sayı – 60985, II fəsil: işarə sayı – 118653, III fəsil: işarə sayı – 47311, nəticə: işarə sayı – 10734.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, qarşıda duran məqsəd və vəzifələrdən, müdafiəyə çıxarılan əsas müddəalardan, işin elmi yeniliyindən, təcrübi əhəmiyyətindən, tədqiqat metodlarından və aprobasiyasından danışılır.

**“Azərbaycan Milli Kitabxanasında kitabxana-informasiya xidmətinin təşəkkülü və formalaşması” adlanan birinci fəsil** 2 yarımfəsildən ibarətdir: “Cəmiyyətin kitabxana-informasiya təminatı sistemində milli kitabxanaların rolu” və “Azərbaycan Milli Kitabxanasında kitabxana-informasiya xidmətinin formalaşmasının tarixi təcrübəsi”.

“Cəmiyyətin kitabxana-informasiya təminatı sistemində milli kitabxanaların rolu” adlanan birinci yarımfəsildə problemin konseptual qoyuluşu üçün xüsusi maraq kəsb edən məsələ kimi ilk olaraq milli kitabxana tipinin formalaşması prosesinə qısa tarixi ekskurs edilir.

Minilliklərlə ölçülən tarixinə və informasiyanın insanlara çatdırılmasının ən yeni metod və texnologiyalarının meydana çıxmasına baxmayaraq, kitabxanalar öz ictimai əhəmiyyətini nəinki itirir, hətta qoruyub saxlayır və inkişaf etdirirlər. Bu inkişafın bir əlaməti də zaman keçdikcə kitabxanaların müxtəlif elm sahələrinə, müxtəlif tələbatçı qruplarına xidmət etmək xüsusiyyətinə və digər fərqli əlamətlərə görə onların şaxələnməsi, tip baxımdan yeni-yeni kitabxanaların yaranmasıdır. Bu prosesin nəticəsində yaranmış kitabxanalardan biri də milli kitabxanalardır.[14]

Birinci yarımfəsildə ilk öncə milli kitabxana anlayışına və ona verilən təriflərə aydınlıq gətirilmiş, milli kitabxanaların funksiyaları müəyyənləşdirilmiş və inkişaf mərhələləri qruplaşdırılmışdır. Bunun üçün dünya və Azərbaycan kitabxanaşünas alimlərinin fikirləri və rəyləri təhlil edilərək ümumiləşmə aparılmışdır.

Bu zaman aydın olur ki, Milli kitabxanalar son yüz ildə dünya kitabxanaşünaslığının, kitabxana ictimaiyyətinin diqqətini cəlb edən kitabxana tipidir. Heç də təsadüfi deyildir ki, kitabxana işi sahəsində dünyanın başlıca təşkilatı olan İFLA-nın tərkibində fəaliyyət göstərən tematik altbölmələrdən biri “Milli kitabxanalar” adlanır. Bölmə vaxtaşırı olaraq bu kitabxanaların qarşıdakı dövrdəki fəaliyyətini müəyyənləşdirən “starateji fəaliyyət planları” işləyib

[14]Национальная библиотека: словарная статья / Библиотечная энциклопедия // Российская государственная библиотека. – Москва: Из-во «Пашков дом», – 2007. – 1300 с.

hazırlayır. 2006-cı ildən bəri bölmə 7 belə plan hazırlayıb təqdim etmişdir. [15]

Qeyd etdiyimiz kimi, müasir kitabxana tipologiyasında milli kitabxanaların xüsusi mövqeyi var. Onların yaranması qlobal və lokal miqyasda cəmiyyətin sənəd və biblioqrafik informasiya tələbatının ümumi qanunauyğunluqlarından irəli gəldiyi üçün, hər millət və hər müstəqil dövlət öz kitabxanasını yaradır. Buna görə də dünyanın bütün ölkələrində belə kitabxanalar mövcuddur. 2017-ci ilin 1 sentyabr tarixinə olan vəziyyətə görə dünyanın 235 ölkəsində milli kitabxana statuslu kitabxanalar fəaliyyət göstərir.[16]

Azərbaycan kitabxanaşünaslığında da dünya milli kitabxanaları problemlərinə lazımi diqqət yetirilmişdir. Ölkədə ayrıca olaraq bu mövzuya həsr edilmiş ilk təşəbbüs Mirzə Ənsərlinin 1999-cu ildə çap olunmuş "ABŞ Konqres Kitabxanası" adlı kitabı olmuşdur. [17] Sonrakı illərdə bu məsələ kitabxana işinin görkəmli təşkilatçısı professor A.A.Xələfovun, professor K.M.Tahirovun, dosent E.Y.Əhmədovun, dosent K.İ.Aslanın araşdırmalarının mövzusu olmuşdur və bu alimlər həmin mövzu ilə bağlı monoqrafiyalar və metodik vəsaitlər, tədris vəsaitləri, məqalələr dərc etdirmişlər.

Beləliklə, dünyada milli kitabxanaların yaranması zərurətinə, onların formalaşması və inkişafı prosesinə nəzər saldıqda görürük ki, hal-hazırda milli kitabxanalar ölkə üçün mühüm əhəmiyyətə malik bir informasiya, sənəd-kommunikasiya, mədəniyyət müəssisəsi, milli intellektual sərvəti qoruyan vacib bir qurum, ölkənin kitabxana sisteminin aparıcı kitabxanası, başlıca olaraq cəmiyyətin informasiya təminatını həyata keçirən sosial institutdur. Zaman keçdikcə, informasiyanın yazılmasının, saxlanmasının, ötürülməsinin,

---

[15] The International Federation of Library Associations and Institutions (IFLA) conferences : [Electronic resource] / URL: https://www.ifla.org/lac/conferences

[16] List of national and state libraries: [Electronic resource] / URL: https://en.wikipedia.org/wiki/List_of_national_and_state_libraries

[17] Ənsərli, M.M. ABŞ Konqres Kitabxanası: 200 illik inkişaf yolu / M.M.Ənsərli. – Bakı: Ağrıdağ, – 1999. – 62 s.

istifadəsinin yeni-yeni vasitələrinin meydana gəlməsi milli kitabxanaların ölkə, millət üçün əhəmiyyətini nəinki azaldır, hətta daha da artırır.

"Azərbaycan Milli Kitabxanasında kitabxana-informasiya xidmətinin formalaşmasının tarixi təcrübəsi" adlı II yarımfəsildə göstərilir ki, Azərbaycan Respublikasında kitabxana işinin qarşısında duran vəzifələrin həyata keçirilməsində ölkənin aparıcı kitabxanası olan M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının müstəsna rolu vardır. Milli Kitabxananın millətin kitabxana və biblioqrafik informasiya təminatı, çap və digər növ sənədlərin toxunulmaz arxivinin yaradılması, dövlət uçot-qeyd biblioqrafik vəsaitlərinin, çap əsərlərinin milli repertuarının formalaşması, ölkənin kitabxanalarına elmi-metodik rəhbərlik və bu sahənin digər önəmli məsələləri üçün müstəsna əhəmiyyəti vardır. İndiyə qədər respublikamızda bu kitabxananın yaranması və inkişafı, fəaliyyətinin müxtəlif istiqamətləri üzrə maraqlı tədqiqatlar aparılmış, bir sıra monoqrafiyalar yazılmış, kitablar nəşr edilmiş, dissertasiyalar müdafiə edilmiş, məqalələr dərc olunmuşdur. Milli Kitabxananın tarixinin öyrənilməsi göstərir ki, Milli Kitabxananın kitabxana-informasiya xidməti sahəsində fəaliyyəti çox zəngin və digər kitabxana şəbəkələri üçün təcrübi əhəmiyyət kəsb etsə də, bu problem kompleks şəkildə araşdırılmamış və dərin elmi tədqiqat obyekti olmamışdır. Bu səbəbdən həmin məsələyə xüsusi diqqət yetirilməsi zəruridir. Bu yarımfəsildə qarşıya qoyulan problemin həlli ilə yanaşı, kitabxana xidməti terminine aydınlıq gətirilmiş və ayrı-ayrı alimlərin fikirləri təhlil edilmişdir.

Həmçinin bu yarımfəsildə göstərilmişdir ki, Azərbaycanda kitabxana işinin tarixinə dair bir sıra elmi əsərlərdə Milli kitabxananın açılmasının 1923-cü ilin 5 iyun tarixində baş verdiyi göstərilmişdir. Lakin kitabxananın fəaliyyətinin öyrənilməsi sahəsində ən əhəmiyyətli tədqiqatların müəllifi professor K.M.Tahirovun araşdırması nəticəsində bu məsələyə birdəfəlik aydınlıq gətirilmiş və göstərilmişdir ki, kitabxananın açılışı 1923-cü

ilin 23 may tarixində baş vermişdir.[18] Onun rəsmi adı isə Azərbaycan SSR Mərkəzi Dövlət Kitabxanası idi.

Arxiv materiallarının öyrənilməsi göstərir ki, kitabxananın oxucularının sayı 7 il ərzində (1923-1929) 2 dəfə, 10 il ərzində isə təqribən 3 dəfə artmışdı. Onların tərkibində azərbaycanlıların miqdarı isə 7 il ərzində (1923-1929-cu illər) 2 dəfə, 10 il ərzində isə (1923-1932) üç dəfədən bir qədər az artmışdı. Ümumi kitab verilişinə gəldikdə isə, onun artımı 8 il ərzində iki dəfədən çox yüksəlmişdi.

Kitabxananın informasiya fəaliyyətinin və tədricən xidmətin yeni üsullarının yaranmasında onun kadr resurslarının inkişafının böyük əhəmiyyəti olmuşdur. Belə ki, əgər 1923-cü ildə burada ştatda 13 nəfər işçi var idisə, 1928-ci ildə həmin rəqəm 29 nəfər, 1932-ci ildə 37 nəfər, 1940-cı ildə isə 2 dəfə artaraq 77 nəfər, yaranan ildəkindən 6 dəfə artıq olmuşdu.[19] Bu yarımfəsildə kitabxananın yarandığı gündən başlayaraq 20-30-cu illərdə, 30-40-cı illərdə, müharibə illərində, müharibədən sonrakı 50-60-cı illərdə, 70-80-ci illərdə olmaqla, müstəqillik illərinə qədər oxuculara kitabxana-informasiya xidmətinə dair məlumatlar qruplaşdırılmış və kitabxananın hesabat materiallarına əsasən statistik təhlillər aparılmışdır. Beləliklə, Azərbaycan Milli Kitabxanasında kitabxana-informasiya xidmətinin təşəkkülü və formalaşması məsələsini təhlil etdikdə aşkara çıxarmaq mümkündür ki, keçdiyi zəngin tarixi inkişaf yolu ərzində kitabxanada böyük işlər görülmüş, dövrünə görə cəmiyyətin, kitabxananın xidmət etdiyi tələbatçı kontingentinin ilkin sənəd və biblioqrafik informasiya tələbatının ödənilməsi vəzifəsinin öhdəsindən layiqincə gəlinmişdir.

**II fəsil "Azərbaycan Milli Kitabxanasında kitabxana-informasiya xidmətinin elektronlaşmasının inkişaf mərhələləri və müasir vəziyyəti (1995-2017-ci illər)" adlanır**.

---

[18] Tahirov, K.M. Dünya milli kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası: Dərs vəsaiti / K.M.Tahirov. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 2013. – 212 s.

[19] Tahirov, K.M. Dünya milli kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası: Dərs vəsaiti / K.M.Tahirov. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 2013. – s. 14-20.

"Milli Kitabxanada elektron kataloqun təşəkkülü və inkişaf mərhələləri" adlı birinci yarımfəsil "Elektron kataloqun təşəkkül və ilkin formalaşma dövrü" və "Elektron kataloqun təkmilləşdirilmə mərhələsi və yeni proqram təminatı" adlanan iki altfəsildən ibarətdir. Bu fəsildə göstərilir ki, Müstəqillik dövründə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının fəaliyyətində, kitabxana-informasiya xidmətinin yüksək sürətlə inkişaf etməsində müxtəlif amillərin rolu olmuşdur. Bu amillər sırasında ümummilli lider Heydər Əliyevin kitabxana işinə verdiyi yüksək qiymət, kitabxana işinin milli hüquqi bazasının yaradılması və M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının beynəlxalq kitabxana əməkdaşlığının subyektinə çevrilməsini və s. qeyd etmək olar. Belə ki, Ümummilli lider Heydər Əliyev Milli Kitabxananın fəaliyyətinə xüsusi önəm verirdi. 1995-1997-ci illər ərzində Heydər Əliyev Milli Kitabxanada dörd dəfə olmuş, müxtəlif tədbirlərdə iştirak etmiş, kitabxananın fəaliyyəti ilə maraqlanmış, kitabxananın informasiyalaşdırılması və modernləşdirilməsi ilə bağlı öz tövsiyələrini vermişdi. *"Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir"*[20] fikri onun kitabxanalara verdiyi yüksək dəyərin təzahürü olmuş, geniş yayılmış aforizmə çevrilmişdir.

Ümummilli lider Heydər Əliyevin kitabxanaya gəlişi zamanı söylədiyi digər fikirlər, bu kitabxananı dünyanın qabaqcıl kitabxanalarından birinə çevirmək barədə arzusu kitabxananın kollektivinin sonrakı fəaliyyəti üçün proqram əhəmiyyətli ideyalar kimi qiymətləndirilə bilər.[21]

Bu fəsildə ilk öncə kitabxana işinə dair normativ sənədlər haqqında məlumat verilmiş və həmin sənədlərin Milli Kitabxananın fəaliyyətinə təsiri təhlil edilmişdir.

---

[20] Xələfov, A.A. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir / A.A.Xələfov. – Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, – 2009. – 185 s.

[21] Tahirov, K.M. Azərbaycan Milli Kitabxanası müstəqillik illərində // – Bakı: Azərbaycan Milli Kitabxanası. Elmi Əsərlər, – 2015. Bur. 7, – s. 8-25.

Milli Kitabxananın fəaliyyətinin yenidən qurulmasını şərtləndirən ilkin normativ sənəd 1998-ci ildə Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə təsdiq olunmuş “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanunu olmuşdur. Bu qanunda ilk dəfə olaraq Azərbaycanda milli kitabxananın statusu, vəzifələri, funksiyaları, fondunun formalaşdırılması mənbələri, kitabxana-informasiya sistemində əhəmiyyəti, yeri və rolu müəyyənləşdirilmiş, habelə hüquqi və mülkiyyət toxunulmazlığı qanunvericilik qaydasında təsbit olunmuşdur.

Milli Kitabxananın fəaliyyətinin zamanın tələblərinə uyğun şəkildə yenidən qurulmasında, burada dünyanın qabaqcıl texnologiya və iş üsullarının tətbiqi üçün əhəmiyyət kəsb edən digər rəsmi sənəd isə “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununa əsaslanaraq hazırlanmış kitabxananın yeni əsasnaməsi idi. Kitabxana xidməti, informasiya təminatı məsələlərinə diqqət yetirilən, kitabxananın bu sahədə fəaliyyəti üçün vacib olan və Milli Kitabxana üçün müstəsna əhəmiyyət kəsb edən bu vacib normativ sənəd 6 mart 2000-ci il Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 nömrəli qərarı ilə təsdiq edilmiş Azərbaycan Milli Kitabxanasının və Azərbaycan Respublikası Elmi-Sahəvi Kitabxanasının nümunəvi Əsasnamələri olmuşdur.[22]

Birinci yarımfəsildə göstərilir ki, müstəqilliyin ilk illərində kitabxanada internetə əlyetərliyin təmin edilməsi məqsədi ilə 1998-ci ilin sentyabrında Avrasiya fondu və ABŞ-ın USAİD təşkilatının maddi yardımı ilə məhz Elmlər Akademiyasının İnformasiya və Telekommunikasiya Elmi Mərkəzinin texniki dəstəyindən istifadə etməklə “Dövlət Kitabxanasının beynəlxalq İnternet şəbəkəsinə qoşulması” adlı layihə tərtib edildi və Açıq Cəmiyyət İnstitutunun Yardım Fonduna müraciət edildi. 2001-ci ildə layihə reallaşdırıldı və daha 4 kompüterdən internetə daxil olmaq imkanı yarandı.[23]

---

[22] Kitabxana işinə dair rəsmi sənədlər: (Qanun və qanun qüvvəli normativ hüquqlu sənədlər toplusu) / tərt. ed. K.M.Tahirov, red. A.T.Abdullayeva. 3-cü təkmilləşdirilmiş nəşri. – Bakı, – 2015. – 200 s.

[23] Məmmədov, M.N. Kitabxana işində informasiya texnologiyalarının ən yeni iş metodlarının tətbiqi, kitabxanada elektron informasiya xidmətinin təşkili // – Bakı: Azərbaycan Milli Kitabxanası. Elmi Əsərlər, – 2015. Bur. 7, – s. 113-120.

2004-cü ildə Milli Kitabxanada kompüterləşdirmə, informasiyalaşdırma işinin maddi-texniki və proqram bazasının yaradılması sahəsində ayrı-ayrı ictimai təşkilatların maliyyə dəstəyi ilə qrant layihələri üzrə işlər davam etdirilmişdi. Avrasiya fondunun, Soros Fondunun və ABŞ-ın Azərbaycandakı səfirliyinin maliyyələşdirdiyi layihə üzrə kitabxananın elektron kataloqunun yaradılması işi davam etdirilmişdi. Kitabxananın serverindəki nasazlıq aradan qaldırılaraq proqramın virtual şəkildə serverə yüklənməsi təmin olunmuşdu.[24]

Kitabxananın internetlə təmin olunmasından sonra növbəti məntiqi mərhələ kimi avtomatlaşdırma – elektron kataloqun yaradılması məsələsi gündəliyə gəldi. Dissertasiyada ilk olaraq elektron kataloqun dünyada yaranma və formalaşma tarixinə diqqət yetirilmişdir. Sonra göstərilir ki, Milli Kitabxanada avtomatlaşdırmanın, elektron kataloqun yaradılması məsələsinin həll edilməsi üçün kitabxananın mütəxəssisləri bu sahələr üzrə beynəlxalq səviyyəli mütəxəssislərlə məsləhətləşmələr apardılar. Məsləhətləşmələr nəticəsində ABŞ-da yerləşən VTLS İnkorporeyted korporasiyasının məhsulunu – “Virtua” adlı proqram təminatını almaq qərarı qəbul edildi. 2002-ci ilin oktyabr ayında Milli Kitabxanada avtomatlaşdırma siteminin yaradılmasına yardım edən təşkilatlarla qrant müqavilələri təsdiq edildi və praktiki işlərə başlandı. Buna görə də həmin tarix Milli Kitabxanada avtomatlaşdırma-elektron kataloqun yaradılması işinin başlanması tarixi kimi qəbul edilir.

İkinci fəslin “Azərbaycan Milli Kitabxanasında elektron kitabxananın yaradılması və inkişafının əsas istiqamətləri” adlanan yarımfəsli “Milli Kitabxanada elektron kitabxana ilkin yaradılma mərhələsində” və “Elektron kitabxananın strukturunun təkmilləşdirilməsi” adlanan iki yarımfəsildən ibarətdir.

“Milli Kitabxanada elektron kitabxana ilkin yaradılma mərhələsində” adlanan yarımfəsildə göstərilir ki, Elektron

[24] Azərbaycan Milli Kitabxanasının 2004-cü il üçün hesabatı // M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, Fond № 1, iş № 82.

kitabxanaların yaranması ideyası XX əsrdə elmi-texniki inqilab nəticəsində sənəd-kommunikasiya sistemlərində baş vermiş "informasiya partlayışı" adını almış proseslə, yəni, bəşəriyyətin yaratdığı və sənəd dövriyyəsinə daxil olan informasiyanın az bir zaman ərzində dəfələrlə artması nəticəsində meydana gəlmişdi.

Elektron kitabxana ideyasının ilk dəfə təklif edilməsindən söhbət gedəndə amerikan mütəxəssislərinin əsərlərinin adı çəkilir. Məsələn V.E.Buşun 1945-ci ildə "Biz necə fikirləşə bilərik" məqaləsində, C.S.R.Likliderin 1965-ci ildə nəşr edilmiş "Kitabxanalar gələcəkdə" kitabında bu zərurətdən bəhs edilir.

Amerika Elmi Tədqiqat Agentliyinin (U.S.Office of Scientific Research and Development) direktoru V.E.Buş öz məqaləsində gələcəkdə elm adamlarının informasiya təminatı üçün lazım olan məlumatların toplanması, saxlanması, alınması və emalı üçün texnologiyaların yaradacağı imkandan bəhs edirdi. V.E.Buşun özünün təklif etdiyi "Memex" adlı informasiya sisteminin konsepsiyasında informasiyanı saxlamaq üçün fototəsvirlər formasında informasiyadan istifadə edilməsi nəzərdə tuturdu. Lakin məqalənin əsas ideyası yeni texnologiyalar, informasiya və elmi inkişafın aralarında qırılması mümkün olmayan əlaqənin mövcudluğunun göstərilməsi idi.[25]

C.S.R.Liklider isə Bostonda Massaçusets Texnologiya İnstitutunun əməkdaşı idi və rəqəmli hesablamaların gələcəkdə kitabxanalara necə təsir edəcəyini tədqiq edirdi. O, öz əsərində belə texnologiyanın istifadəçiyə dost elektron kitabxanaların yaranması üçün hansı tədqiqatların aparılmasının zəruri olduğunu göstərirdi.[26]

Milli Kitabxanada elektron kitabxana yaradılması sahəsində görülmüş işləri elektron kataloqda olduğu kimi iki mərhələyə bölmək mümkündür.

Birinci mərhələ hazırlıq mərhələsidir. 1998-ci ildən başlayan və 2006-cı ilə qədər davam edən həmin mərhələdə bu sahədə görülən işlər müəyyənləşdirildi, texniki, proqram təchizatı məsələləri həll

---

[25] Bush, V.E. As We May Think // Boston: The Atlantik, – 1945, July, p. 34-44.
[26] Licklider, J.C.R. Libraries of the future / J.C.R.Licklider // Council on Library Resources. – Cambridge, Mass.: Bolt, Beranek, Newman, – 1965. – 253 p.

edildi, qabaqcıl təcrübə öyrənildi, bunun üçün lazımi struktur islahatları aparıldı, bu işi həyata keçirə bilən kadr potensialı formalaşdırıldı. Düzdür, professor Kərim Tahirovun göstərdiyi kimi, 2004-cü ilin mart ayından Milli Kitabxanada bütün kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işlərinə start verilmişdisə də, lakin bütün bunlar külli miqdarda vəsait tələb etdiyindən işlər müvəqqəti dayandırılmışdı. [27]

M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının resursları əsasında elektron kitabxana yaradılması sahəsində ilk praktiki işlər 2002-ci ildə görülməyə başlamışdır.

İkinci fəslin "Elektron kitabxananın strukturunun təkmilləşdirilməsi" adlanan ikinci yarımfəslində Milli Kitabxanada avtomatlaşdırmanın, informasiyalaşdırmanın inkişafı, onun saytının təkmilləşdirilməsi, burada tammətnli informasiya resurslarının – elektron kitabxananın yaradılmasının gedişinə nəzər saldıqda müşahidə etmək mümkündür ki, bu sahədə fəaliyyətin daha yüksək fazaya keçməsi 2006-cı ilə təsadüf edir. 2006-cı ildə başlanan həmin prosesin ilk və əhəmiyyətli addımı kitabxanada müasir tələblərə cavab verən elektron kitabxananın formalaşdırılmasına imkan verən inzibati-idarəetmə strukturunun - müvafiq şöbə və bölmələrin yaradılması olmuşdu. 2006-cı ildən sonrakı dövrdə kitabxanada tammətnli elektron resursların yaradılması yolu ilə elektron kitabxananın yaradılması üçün həyata keçirilmiş inzibati dəyişiklikləri, təkmilləşməni elektron kitabxananın yaradılması üçün lazım olan inzibati-struktur bazası kimi dəyərləndirmək olar. Göstərilən zamandan etibarən kitabxanada elektron kitabxana yaradılması sahəsində görülmüş işlər burada müasir tələblərə cavab verən elektron kitabxananın strukturunun formalaşmasına imkan vermişdir.

İkinci fəslin "Oxuculara kitabxana-informasiya xidməti proseslərinin avtomatlaşdırılması" adlanan üçüncü yarımfəslində kitabxanalarda avtomatlaşdırmanın məqsədinə, kitabxanaçı əməyinin

---

[27] Tahirov, K.M. Azərbaycan Milli Kitabxanası müstəqillik illərində // – Bakı: Azərbaycan Milli Kitabxanası. Elmi Əsərlər, – 2015. Bur. 7, – s. 8-25.

məhsuldarlığının və effektivliyinin artırılmasına, kitabxana-biblioqrafik və informasiya xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə, istifadəçilərə xidmətin çeşidi və keyfiyyətinin müəyyənləşdirilməsinə, kitabxana proseslərinin avtomatlaşdırılması işlərinə kompleks bir mexanizm olaraq baxılır və onun tətbiq sahələri təyin edilir. Bu yarımfəsildə həmçinin kitabxanada oxuculara kitabxana-informasiya xidmətinin elektronlaşdırılmasında vacib şərtlərdən biri olan xidmət işinin ayrı-ayrı proseslərinin – oxucuların kitabxanaya yazılması və qeydiyyatı, elektron oxucu biletlərinin verilməsi, oxucuların nəzarət-buraxılış məntəqəsində qeydə alınması, kitab sifarişinin elektron olaraq bilavasitə oxucu tərəfindən verilməsi, sifarişlərin fond saxlanclarına ötürülməsi və əks əlaqə ilə geriyə oxu zallarına çatdırılması, kitabların geri qaytarılması və elektron biletlərdən silinməsi, kitabın kitabxanadan qanunsuz yolla çıxarılmasının qarşısının alınması proseslərinin elektronlaşdırılması mərhələsi geniş təhlil edilir.

**III fəsil "Azərbaycan Milli Kitabxanasında kitabxana-informasiya xidmətinin inkişafı perspektivləri"** adlanır və 3 yarımfəsildən ibarətdir.

Bu fəslin "İnformasiya cəmiyyəti şəraitində elektron kataloqun və elektron kitabxananın təkmilləşdirilməsinin perspektivləri" adlanan birinci yarımfəslində göstərilir ki, sənəd-kommunikasiyalar sisteminin ən geniş yayılmış institutu olan kitabxanalar açıq, dinamik bir sosial qurum, SKS-in ən geniş yayılmış təsisat növüdür. Bu səbəbdən də cəmiyyətdə baş verən hadisələr, sosial inkişaf, sənəd-kommunikasiyalar sistemində baş verən proseslər kitabxanalara da təsir edir, onun strukturunda, fəaliyyətində, yerinə yetirdiyi xidmətlərdə də dəyişikliyə, inkişafa səbəb olur. Bu istiqamətdə kitabxanaların fəaliyyəti, onların ictimai missiyası XX əsrin sonundan etibarən dünyada formalaşmaqda olan informasiya cəmiyyəti şəraitində ancaq o zaman reallaşa bilər ki, onlar tammətnli resurslarını və elektron kataloqlarını daha da inkişaf etdirsinlər, daha mükəmməl elektron kitabxanalar yaratsınlar və öz sənəd resurslarını daha da zənginləşdirsinlər, resursların tələbatçılar qarşısında açılmasını, burada aparılan sənəd-informasiya axtarışını daha da təkmilləşdirsinlər. Azərbaycan kitabxanaşünaslığında

kitabxanaların informasiya-axtarış sistemlərinin, o cümlədən, elektron kataloqların rolu və yeri, onların funksiyaları, təkmilləşdirilməsi məsələləri ancaq son zamanlar tədqiqat müstəvisinə çıxarılmaqdadır. Bu mövzuda ölkəmizdə də müəyyən tədqiqatlar aparılır, bu barədə kitablar yazılır, elmi məqalələr dərc edilir. Məsələn, görkəmli tədqiqatçı, professor Kərim Tahirov bu sahədə Milli Kitabxanada aparılmış işləri öz kitablarında və məqalələrində qələmə almışdır. [28]

Aybəniz Əliyeva-Kəngərli və onun həmmüəllifi Fəridə Hüseynova müasir dünyada, informasiya cəmiyyəti şəraitində kitabxanaların vəzifələrindən, funksiyalarından bəhs edərək onların daha da təkmilləşməsi üçün İKT-dən geniş istifadə edilməsinin zəruri olmasını qeyd edirlər.[29]

Fəslin "Milli Kitabxanada istifadəçilərin kitabxana-informasiya təminatında yeni virtual xidmət formalarından istifadə imkanları" adlanan ikinci yarımfəslində müasir kitabxanaşünaslıqda kitabxanalarda həyata keçirilən virtual xidmətə diqqət çəkilir və göstərilir ki, həm Qərb, həm də MDB kitabxanaçılığında bu mövzuya bir sıra kitablar, çox sayda məqalələr həsr edilmişdir. [30] Milli Kitabxanada həyata keçirilən innovativ, o cümlədən virtual xidmət növləri bir sıra tədqiqatçıların əsərlərində kifayət qədər

---

[28] Tahirov, K.M. Dünya milli kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası: Dərs vəsaiti / K.M.Tahirov. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 2013. – 212 s.

[29] Алиева-Кенгерли, А.И. Библиотека как элемент инфраструктуры информационного общества (из практики информатизации в Азербайджанской Республике) / А.И.Алиева-Кенгерли, Ф.И.Гусейнова // Библиотеки национальных академий наук: проблемы функционирования, тенденции развития: науч.-практ. и теорет. сб. / Междунар. ассоц. акад. наук, Совет директоров науч. б-к и информ. центров; отв. ред. А.С.Онищенко. – К.: НБУВ, 2003-2012, – 2008. Вып. 6, – 476 с.

[30] Громова, Е.В. Инновационный подход к организации информационно-справочного обслуживания в современных условиях (на примере вузовской библиотеки // – Москва: Современные научные исследования и инновации: Электронный научно-практический журнал, – 2014. № 8, – с. 30-35.

tədqiq edilərək əks olunmuşdur. Lakin bu əsərlərin içərisində xüsusi olaraq professor K.M.Tahirovun, Ə.İ.İsmayılovanın həm ayrıca, monoqrafik formada, həm də məqalə şəklində dərc edilmiş kitablarını və elmi məqalələrini xüsusi olaraq qeyd etmək zəruridir.

Milli Kitabxanada həyata keçirilən innovativ xidmət növləri barədə tədqiqatlardan, elmi dərclərdən bəhs edərkən ayrıca olaraq Ə.İ.İsmayılovanın "Oxuculara xidmətin əsas istiqamətləri, innovativ yeniliklərin tətbiqi təcrübəsi (Azərbaycan Milli Kitabxanasının təcrübəsi əsasında)" adlı kitabı və "İnformasiyalı cəmiyyət quruculuğu şəraitində Milli Kitabxanada oxuculara xidmətin əsas istiqamətləri" adlı məqaləsi vurğulanmalıdır.[31]

"Milli Kitabxananın virtual xidmət sahəsində oxuculara və digər kitabxanalara təqdim etdiyi xidmətlər "Virtual sifariş", "Biblioqrafik sorğu", "Metodik xidmət", "Kitabxanalararası abonement və Sənədlərin elektron çatdırılması" bölmələri vasitəsilə həyata keçirilir." [32]

"Kitabxana-informasiya xidmətində innovativ iş formalarından istifadənin perspektivləri" adlanan üçüncü yarımfəsildə isə kitabxana-informasiya xidmətinin təşkilində innovativ metodların tətbiqindən bəhs edilir. Burada göstərilir ki, kitabxana-informasiya xidmətində innovativ iş formaları məsələləri Azərbaycan alimlərinin də tədqiqat dairəsindən kənarda qalmamışdır. Bu məsələ ilk növbədə Milli Kitabxananın, eləcə də digər kitabxanalarda, BDU-da çalışan tədqiqatçı və mütəxəssislərin elmi axtarışlarının obyekti olmuşdur.

Bu yarımfəsildə tədqiqat işinin dəyərini və əhəmiyyətini daha da artıran dəyərli təkliflər irəli sürülmüşdür. Bu təkliflər elektron kataloqun və elektron kitabxananın təkmilləşdirilməsi, həm

---

[31] İsmayılova, Ə.İ. Oxuculara xidmətin əsas istiqamətləri, innovativ yeniliklərin tətbiqi təcrübəsi (Azərbaycan Milli Kitabxanasının təcrübəsi əsasında) / Ə.İ.İsmayılova. – Bakı: Azərbaycan Milli Kitabxanası, – 2016. – 56 s.

[32] İsmayılova, Ə.İ. İnformasiyalı cəmiyyət quruculuğu şəraitində Milli Kitabxanada oxuculara xidmətin əsas istiqamətləri // – Bakı: Azərbaycan Milli Kitabxanası. Elmi Əsərlər, – 2015. Bur. 7, – s. 30-36.

tammətnli resursların verilənlər bazasının zənginləşdirilməsi və onlardan istifadənin optimallaşdırılması, həm də yeni virtual xidmətlərin, innovativ iş üsullarının Milli Kitabxananın təcrübəsinə tətbiqinin gələcək inkişafının yeni istiqamətlərini müəyyən edir.

**Nəticə** hissəsində tədqiqatın yekunu olaraq əldə olunan əsas elmi-nəzəri və təcrübi nəticələr göstərilmiş, informasiya mədəniyyətinin formalaşmasında kitabxanaların daha fəal iştirakı və rolunun artmasında rəqəmsal texnologiyaların tətbiqinə dair konkret tövsiyə və təkliflər təqdim edilmişdir.

Dünya təcrübəsi göstərir ki, kitabxana-informasiya xidmətinin elektronlaşmasının səmərəliliyi – oxucuların sorğuları üzrə informasiyanın predmetə görə axtarışı; kitabxananın kitab və dövri nəşrlər bazası əsasında elektron xidmət; jurnal məqalələrinin biblioqrafik təsvirini aparmaq; açar sözlərə görə biblioqrafik yazıların axtarışı; verilən ədəbiyyata nəzarət; oxucuların və onların formulyarlarının uçotu; verilən ədəbiyyatın oxucu formulyarlarına avtomatik yazılması; ədəbiyyatın qaytarılma müddətinə nəzarət və s. funksiyaların yerinə yetirilməsindədir.

Dissertasiya işində M.F.Axundov adına Milli Kitabxananın iş təcrübəsi əsasında kitabxana-informasiya xidmətinin elektronlaşması prosesi tədqiq edilməmişdən əvvəl Milli Kitabxana fenomeni, onun yaranma səbəbləri, tarixi missiyası, dünyada inkişaf mərhələləri anlayışına aydınlıq gətirilmişdir. Belə ki, tədqiqat işində müəyyən olunur ki, müasir kitabxana tarixi tədqiqatlarında milli kitabxanaların yaranaraq inkişaf etməsi üç mərhələyə bölünür. Birinci mərhələ – milli kitabxanaların inkişafının ənənəvi əsaslarla inkişafı mərhələsi orta əsrlərdən başlayaraq XIX əsr daxil olmaqla olan dövrü əhatə edir. Milli kitabxanaların inkişafının ikinci mərhələsi keçid dövrü hesab edilə bilər. XX əsrin birinci yarısını əhatə edən həmin mərhələ zamanı ilk növbədə Asiya və Afrikada çoxsaylı millətlər öz dövlətlərini yaratdılar və bunun ardınca milli kitabxanalarını yaratmağa başladılar. Milli kitabxanaların inkişafının üçüncü, müasir mərhələsi onların inkişafının intensiv dövrü hesab edilir. XX əsrin ikinci yarısından başlanan həmin mərhələ zamanı onların fəaliyyətində əsas yeri tələbatçılara xidmətin daha da intensivləşməsi, ölkədə kitabxana işinə rəhbərlik, ölkənin kitabxana

fəaliyyətinin dünya kitabxana fəaliyyətinə daha sıx inteqrasiya edilməsinin təşkili tutmuşdur.

Dissertasiya işində kitabxana xidməti anlayışına ayrıca yer ayrılmış və yeni informasiya texnologiyalarının tətbiqindən sonra kitabxana-informasiya xidmətinin yeni formaları haqqında elmi fikirlər irəli sürülməsini onun ikinci mühüm nəticəsi hesab etmək olar. Göstərilir ki, informasiya xidməti ayrıca bir şəxsin, şəxslər qrupunun və ya bütünlükdə cəmiyyətin informasiya tələbatının ödənilməsinə yönələn informasiya proseslərinin məcmusundan (sənədlərin toplanması, analitik-sintetik işlənməsi, informasiyanın axtarışı və yayılması) ibarət olan fəaliyyət sahəsidir. Bu da dissertasiya işində çıxarılan üçüncü mühüm nəzəri nəticədir.

Tədqiqat işində kitabxana-informasiya xidmətinin elektronlaşması problemində əvvəlcə tədqiqata ənənəvi kitabxana xidməti sahəsində Milli Kitabxananın tarixi təcrübəsi cəlb edilir. Göstərilir ki, 1923-1997-ci illərdə kitabxananın oxuculara informasiya xidməti mühitinə inteqrasiyası prosesinin əsası qoyulmuş, mövcud ideoloji və siyasi rejimin verdiyi imkanlar çərçivəsində bu sahədə hüquqi və təşkilati baza yaradılmış, beynəlxalq mədəni əməkdaşlıq çərçivəsində kitab mübadiləsi və qabaqcıl iş təcrübəsinin öyrənilməsi sahəsində diqqəti cəlb edən müəyyən tədbirlər həyata keçirilmişdir.

Qeyd olunan məsələ üzrə tədqiqata cəlb edilən ikinci məsələ müstəqillik illərində Milli Kitabxanada kitabxana-informasiya xidmətinin təşkili məsələsi olmuşdur.

Müstəqillik dövründə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının fəaliyyətində kitabxana-informasiya xidmətinin yüksək sürətlə inkişaf etməsində bu dövrdə kitabxana işi sahəsində qəbul edilən dövlət sənədlərinin müstəsna rolu olmuşdur. 2004-cü il M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası üçün status baxımdan çox əlamətdar il olmuşdur. Belə ki, 15 aprel 2004-cü ildə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 50 saylı qərarı ilə Kitabxanaya "Milli Kitabxana" statusu verilmişdir. Odur ki, 2004-cü ilin aprel ayından M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası M.F.Axundov adma Azərbaycan Milli Kitabxanası adlanır.

Dissertasiya işinə 19 cədvəl, 17 diaqramın daxil edilməsi və faktik materialın çoxaspektli təhlili kitabxanada kitabxana-informasiya xidmətinin inkişaf istiqamətlərini izləməyə imkan verir.

Aparılan tədqiqatlar nəticəsində belə qənaətə gəlmək mümkündür ki, Milli Kitabxanada kitabxana-informasiya xidməti özündə aşağıdakı məsələləri əks etdirir:

1. Ənənəvi üsulla kitabxana-informasiya xidmətinin təşkili;
2. Elektron kataloq və elektron kitabxana vasitəsilə kitabxana-informasiya xidmətinin təşkili;
3. Kitabxana-informasiya təminatında yeni virtual xidmət formalarından istifadə;
4. Kitabxana-informasiya xidmətində innovativ iş formalarından istifadə.

Elmi baxımdan kitabxana-informasiya xidməti zamanı hər bir proses və hadisənin öz spesifik tarixi inkişaf prosesi vardır. Zamanla əlaqədar proses keyfiyyət dəyişikliyi ilə müəyyən edilir.

Tədqiqat işində M.F.Axundov adına Milli Kitabxanada kitabxana-informasiya xidmətinin elektronlaşması məsələləri və problemləri tarixi inkişaf baxımından aşağıdakı kimi xarakterizə edilir:

1. Azərbaycan Milli Kitabxanasında kitabxana-informasiya xidmətinin təşəkkülü və formalaşması;
2. Azərbaycan Milli Kitabxanasında kitabxana-informasiya xidmətinin elektronlaşmasının inkişaf mərhələləri və müasir vəziyyəti;
3. Azərbaycan Milli Kitabxanasında elektron kitabxananın yaradılması və inkişafının əsas istiqamətləri;
4. Azərbaycan Milli Kitabxanasında kitabxana-informasiya xidmətinin inkişafı perspektivləri.

Dissertasiya işində kitabxana-informasiya xidmətinin elektronlaşması prosesinin müvəffəqiyyətlə həyata keçirilməsi və qarşıya çıxan problemlərin aradan qaldırılması üçün ilkin olaraq dünya təcrübəsinin təhlili nəticəsində əldə edilmiş nailiyyətlərin Azərbaycan kitabxanalarında tətbiqi səviyyəsinə nəzər salınaraq problemlərin həlli yolları aşağıdakı istiqamətlərdə xarakterizə olunmuşdur:

1. Kitabxana-informasiya xidmətinin elektronlaşması bütün fəaliyyət sahələrinin, elmin, təhsilin, mədəniyyətin və s. sahələrin mütəxəssislərinin daha dolğun təmin olunmasını həyata keçirməlidir;
2. Kitabxana-informasiya xidmətinin elektronlaşması zamanı sosial-iqtisadi faktorlar nəzərə alınmalıdır;
3. Kitabxana-informasiya xidmətinin elektronlaşması müstəqillik illərində gedən sosial-iqtisadi dəyişikliklər istiqamətinə yönəldilməlidir;
4. Kitabxana-informasiya xidmətinin elektronlaşmasına ümumrespublika kitabxana-informasiya xidmətinin təşkili prosesinin tərkib hissəsi kimi baxılmalıdır;
5. Kitabxana-informasiya xidmətinin elektronlaşması, müxtəlif idarə və şəbəkə kitabxanalarının fəaliyyətinin koordinasiyası və qarşılıqlı əlaqələri əsasında kitabxana-informasiya xidmətinin vahid sistemini yaratmaqla həyata keçirilməlidir;
6. Kitabxana-informasiya xidmətinin elektronlaşması, müasir şəraitdə və yaxın gələcəkdə Azərbaycanda kitabxana-informasiya xidmətinin səmərəli təşkili və istifadəsi prosesi müasir informasiya texnologiyaları ilə təmin edilməlidir;
7. Vahid informasiya mühitinin formalaşması üçün vahid informasiya mübadiləsi sistemi yaradılmalıdır;
8. Azərbaycanda kitabxana-informasiya xidmətini beynəlxalq informasiya infrastrukturuna inteqrasiya etmək, həmçinin onu beynəlxalq səviyyədə yenidən təşkil etmək üçün milli normativ texniki sənədlər bazası (məs., standartlar, formatlar, tezauruslar və s.) işlənməlidir;
9. Onlayn ödənişli xidmət növü hesab olunan elektron sənəd göndərişi xidməti ölkə kitabxanalarında da təşkil edilməli, kitabxanadaxili xərclər üçün istifadə olunması qismən özünümaliyyələşdirmə yolu ilə aparılmalıdır;
10. Dünyada baş verən sosial-siyasi, elmi, texnoloji yeniliklərlə əlaqədar olaraq Azərbaycan vətəndaşlarının ən müasir informasiya mənbələrinə (məsələn, Thomson Reuters, SCOPUS, Springer və s.) çıxışı təmin edilməlidir;

11. Respublikanın kitabxana-informasiya xidməti sistemində informasiya mübadiləsinin kibertəhlükəsizliyi təmin olunmalıdır.

Əminliklə demək olar ki, bütün bu təklif və tövsiyələrin həyata keçirilməsi kitabxana-informasiya xidmətinin elektronlaşması prosesində effektiv üsulların tətbiqinə imkan yaradar, Azərbaycan kitabxanalarının beynəlxalq informasiya məkanına inteqrasiyasına, informasiya mübadiləsinin təkmilləşdirilməsinə, oxucuların informasiya tələbatlarının müasir texnologiyalar vasitəsilə təminatına güclü təkan verə bilər.

## Dissertasiyanın mövzusuna dair müəllifin dərc olunmuş elmi əsərlərinin siyahısı


1. Milli Kitabxanada oxuculara xidmət işi yeni mərhələdə // – Bakı: Azərbaycan Milli Kitabxanası - 90: məqalələr məcmuəsi, – 2013. – s. 44-51.
2. XXI əsrin informasiya məkanında oxuculara xidmət // – Bakı: Mədəni həyat, – 2013. № 8, – s. 32-34.
3. İnformasiyalı cəmiyyət quruculuğu şəraitində Milli Kitabxanada oxuculara xidmətin əsas istiqamətləri // – Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının Elmi Əsərləri, – 2015. Bur. 7, – s. 31-36.
4. Информационные запросы общества и новые формы обслуживания читателей в Азербайджанской национальной библиотеке им. М.Ф.Ахундова // – Москва: Вестник БАЕ, – 2015. № 3, – с. 50-52.
5. Oxuculara xidmətin əsas istiqamətləri, innovativ yeniliklərin tətbiqi təcrübəsi: (Azərbaycan Milli Kitabxanasının təcrübəsi əsasında). – Bakı: Azərbaycan Milli Kitabxanası, – 2016. – 56 s.
6. Традиционный и электронный фонды Азербайджанской национальной библиотеки // – Москва: Библиография и книговедение, – 2016. № 4, – с. 27-32.
7. Zəngin kitab xəzinəsi – Milli Kitabxana // Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər. Beynəlxalq

elmi konfransın materialları. II hissə, – Bakı: – 3 may – 5 may, – 2016. – s. 34-35.
8. Gənclərin mütaliə mədəniyyətinin formalaşmasında Milli Kitabxananın rolu // "Gənclər-İnnovasiyalar-Kitabxanalar". Azərbaycan-Rusiya elmi-praktiki konfransın materialları. – Bakı: – 2 noyabr, – 2016. – s. 66-77.
9. XXI əsrin informasiya məkanında oxuculara xidmətin əsas istiqamətləri, innovativ yeniliklərin tətbiqi təcrübəsi // Kitabxana-informasiya elmi: tədris və təcrübədə yeni çağırışlar. Beynəlxalq elmi konfransın materialları. – Bakı: – 5 may, – 2016. – s. 23-25.
10. Oxucuların elektron-informasiya tələbatının ödənilməsində Azərbaycan Milli Kitabxanasının rolu // M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının Elmi Əsərləri ("Kitabxanalar üçün yeni çağırışlar, yeni ideyalar, yeni tələblər: kitab, mütaliə, innovasiyalar" mövzusunda Beynəlxalq Elmi-praktik Konfransın materialları əsasında), – Bakı: – 29 sentyabr , – 2017. Bur. 9, – s. 17-24.
11. Azərbaycan əlyazmaları Çexiya Milli Kitabxanasında // Azərbaycan əlyazmaları dünya kitabxanalarında: II Beynəlxalq Elmi-nəzəri Konfransın materialları. – Bakı: – 29 noyabr, – 2017. – s. 35-38.
12. Электронизация библиотечно-информационного обслуживания (на опыте Азербайджанской Национальной Библиотеки) // Сборник статей по материалам LXX международной научно-практической конференции «Научная дискуссия: инновации в современном мире». – Москва: – май, – 2017. № 10 (69), – с. 22-30.
13. Книгопечатание в Азербайджане: страницы истории // Материалы XIII международного конгресса «500 лет белорусского книгопечатания». – Минск: – 14 – 15 сентября, – 2017. Ч. 1. – с. 231-234.
14. Azərbaycan Milli Kitabxanasında kitabxana-informasiya xidmətinin formalaşmasının tarixi təcrübəsi // – Bakı:

Kitabxanaşünaslıq və biblioqrafiya, – 2018. № 1, – s. 117-121.
15. Elektron informasiya xidməti vasitələrilə musiqi irsimizin təbliğində Milli Kitabxananın rolu // – Bakı: Mədəniyyət.az, – 2018. № 1, – s. 68-70.
16. Cəmiyyətin informasiya təminatı sistemində Milli kitabxanaların rolu // – Bakı: Kitabxanaşünaslıq və informasiya, – 2018. № 1, – s. 56-62.
17. Elektron kataloqun təşəkkülü və inkişafı Milli Kitabxanada elektronlaşmanın əsas istiqaməti kimi // – Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının Elmi Əsərləri, – 2018. Bur. 10, – s. 10-20.
18. Kitabxana-informasiya xidməti proseslərinin elektronlaşdırılması günün tələbidir // – Bakı: AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun Elmi Əsərləri, – 2018. № 1, – s. 139-144.
19. Azərbaycan Milli Kitabxanasında elektron kitabxananın yaradılması və inkişafının əsas istiqamətləri // – Bakı: AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu: Əlyazmalar yanmır (elmi məqalələr toplusu), – 2018. № 1, – s. 228-232.
20. Электронный каталог: больше возможностей для читателей // – Гілея: науковий вісник. Збірник наукових праць. К., 2018. Вип. 130 (3), – с. 129-131.
21. Азербайджанская Национальная Библиотека им. Ахундова: 95 лет на службе народу // – Москва: Вестник БАЕ, – 2018. № 3, – с. 21-24.
22. Азербайджанская Национальная Библиотека-национальное Достояние азербайджанского народа // Доклади от Международна научна конференция, посветена на 140 години от основаването на Националната библиотека «Св.св.Кирил и Методий». – София: – 10-11 декември, – 2018. – с. 81-91.
23. News from Azerbaijan, International Scientific and Practical Conference "National Libraries as Mobile Information Centers": [Electronic resource] // – The Hague: IFLA Metadata Newsletter, – 2019. vol. 5. – № 2, – p. 9-11.

24. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında Müstəqillik illərində Azərbaycan musiqi ədəbiyyatının və musiqiyə aid elektron texniki vasitələrin təbliği // – Bakı: Kitabxanaşünaslıq və informasiya, – 2019. № 1, – s. 201-207.
25. Sosial mediada kitabxana səhifələrinin vacib atributları // – Bakı: Kitabxanaşünaslıq və informasiya, – 2020. № 1, – s. 101-105.
26. On the activity of the Azerbaijan National Library during the new Coronavirus (covid-19) pandemic [Electronic resource] // – Haaqa: IFLA Metadata Newsletter, – 2020. vol. 6. – № 1, – p. 7-8.
27. Азербайджанская Национальная Библиотека и электронно-информационное обслуживание в период пандемии // – Москва: Современная научная мысль, – 2021. № 3, – с. 143-150.
28. Azərbaycan Milli Kitabxanasında koronavirus (Covid-19) pandemiyası şəraitində elektron informasiya xidmətinin təşkili. – Bakı: Azərbaycan Milli Kitabxanası, – 2021. – 232 s.
29. Организация виртуального библиотечно-информационного обслуживания в Азербайджанской Национальной Библиотеке в условиях пандемии // Материалы Международной научно-практической конференции, посвященной 185-летию Национальной библиотеки имени Ахмет-Заки Валиди Республики Башкортостан. – Уфа: – 2021, – с.112-118.

Dissertasiyanın müdafiəsi 18 fevral 2022-ci il tarixində saat 10⁰⁰-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 12 yanvar 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 10.01.2022

Kağız formatı: A5

Həcm: 42929

Tiraj: 100